# Azərbaycanda sosial infrastruktur quruculuğu daimi prosesə çevrilib

***Prezident İlham Əliyev:*** *Sosial infrastruktur layihələrinin icrası ilə bağlı konkret proqramlar, planlar var və bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapır*

*Son 16 ildə bütün ölkə üzrə intensiv şəkildə həyata keçirilən yüksək səviyyəli infrastruktur quruculuğu Azərbaycanın dinamik iqtisadi inkişafını və insanların həyat səviyyəsinin yüksəlməsini şərtləndirən çox mühüm amil qismində çıxış edir. Bəhs olunan dövrdə paytaxt Bakıda və bölgələrdə reallaşdırılan çoxsaylı layihələr sayəsində respublikamız infrastruktur təminatı baxımından dünyanın qabaqcıl ölkələri səviyyəsinə yüksəlib. Prezident İlham Əliyev çox mühüm iqtisadi və sosial önəm daşıyan infrastruktur quruculuğunun ölkəmiz üçün prioritet olduğunu yüksəksəviyyəli tribunalardan dəfələrlə bəyan edib.* ***"Bu ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı qəbul edilib. Bu, çox genişmiqyaslı proqramdır. Baxmayaraq ki, son illərdə infrastruktur layihələri ilə bağlı bir çox işlər görülmüşdür, bu günə qədər həllini tapmayan məsələlər də bu proqramın icrası nəticəsində öz həllini tapacaq. Bildiyiniz kimi, bu sahə bizim üçün prioritet sahədir",*** *- deyə dövlətimizin başçısı Onun yanında keçirilən sosial-iqtisadi sahə ilə bağlı müşavirədəki çıxışında vurğulayıb.*



### BÜTÜN ÖLKƏ BOYUNCA ÇOXLU SAYDA SOSİAL İNFRASTRUKTUR OBYEKTLƏRİNİN TİKİLMƏSİ RESPUBLİKAMIZDA HƏYATA KEÇİRİLƏN SİYASƏTİ ƏKS ETDİRİR

Azərbaycan sosial dövlətdir. Prezident İlham Əliyev qarşıya respublikamızda sosial sferanı dünyanın qabaqcıl ölkələrindəki səviyyəyə çatdırmaqla bağlı mühüm vəzifə qoyub. Yeri gəlmişkən, bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədəki nitqində dövlət başçımız respublikamızda reallaşdırılan sosial siyasətin birmənalı olduğunu xüsusi olaraq nəzərə çatdırıb. Bu xüsusda fikirlərini ifadə edən dövlət başçısı deyib: **"Bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Hesab edirəm ki, Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkədir".**

Ölkəmizin nümunəvi sosial siyasətindən bəhs edərkən son illərdə respublikamızda geniş vüsət alan sosial infrastruktur quruculuğunun önəmini də xüsusi vurğulamaq lazımdır. Bütün ölkə boyunca çoxlu sayda sosial infrastruktur obyektlərinin tikilməsi respublikamızda həyata keçirilən siyasəti əks etdirir. Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq respublikamızda sosial infrastruktur quruculuğu geniş vüsət alıb. Prezident İlham Əliyev sosial-iqtisadi sahə ilə bağlı müşavirədə bildirib ki, sosial infrastruktur layihələrinin icrası ilə bağlı konkret proqramlar, planlar var və bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapır.

Onu da vurğulayaq ki, Dövlət İnvestisiya Proqramı ilə yanaşı, Prezident İlham Əliyevin regionlara səfərləri çərçivəsində vətəndaşlardan aldığı müraciətlər əsasında imzaladığı çoxsaylı sənədlərlə də sosial təyinatlı obyektlərin tikintisinə əlavə maliyyə vəsaiti ayrılır. Ölkəmiz bu sahədə qazandığı təcrübəni perspektivdə də davam etdirmək əzmindədir. Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində vurğulayıb ki, sosial infrastrukturun yaradılması prosesi davam etdiriləcək.

### QISA MÜDDƏT ƏRZİNDƏ ÖLKƏ ƏRAZİSİNDƏ 640-DAN ÇOX MÜASİR TİBB MÜƏSSİSƏSİ YARADILIB

Respublikamızda regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramları çərçivəsində səhiyyə infrastrukturunun yenilənməsi istiqamətində məqsədyönlü iş aparılır. Qeyd etmək yerinə düşər ki, son 16 ildə ölkə üzrə 600-dən çox tibb müəssisəsi tikilib və yaxud əsaslı şəkildə yenidən qurulub. Səhiyyə ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir avadanlıqlarla təchizatı da davamlı olaraq diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2019-cu il mayın 7-də Qobustan Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak ediblər. Rayon Mərkəzi Xəstəxanası üçün yeni binanın tikintisinə 2014-cü ildə başlanılıb. İnşaat işləri 2018-ci ildə başa çatdırılıb. 90 çarpayılıq Qobustan Rayon Mərkəzi Xəstəxanasının inşası müasir səviyyədə və yüksək keyfiyyətlə həyata keçirilib. Xəstəxananın ümumi ərazisi 2,6 hektardan çoxdur. Burada əsas korpusla yanaşı, terapiya və təcili-tibbi yardım binası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Qobustan Rayon Şöbəsinin binaları inşa olunub. Xəstəxanada əsasən Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyədən alınan müasir tibbi avadanlıq quraşdırılıb. Bu avadanlığın hər biri istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir. Xəstəxanada cərrahiyyə, terapiya, təcili tibbi yardım, doğum və ginekologiya, uşaq xəstəlikləri, poliklinika, infeksiya xəstəlikləri, şüa-diaqnostika (radiologiya), reanimasiya və digər şöbələr fəaliyyət göstərir. Laboratoriyada müayinələri yüksək dəqiqliklə və qısa müddətdə aparmaq üçün hərtərəfli şərait var. Qobustan Rayon Mərkəzi Xəstəxanasında yaradılan şərait bir daha sübut edir ki, son illərdə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində müasir tibb müəssisələrinin yaradılması, mövcud tibb ocaqlarının yüksək səviyyədə yenidən qurulması istiqamətində olduqca vacib layihələr icra edilir. Prezident İlham Əliyev açılış mərasimindən sonra tibb ocağının kollektivi ilə keçirilən görüşdə Azərbaycanın bölgələrində müasir standartlara cavab verən belə bir xəstəxananın yaradılmasını yüksək qiymətləndirib. **"Ölkəmizin hər bir yerində yeni xəstəxanalar tikilir. Son illər ərzində 640-dan çox müasir tibb müəssisəsi yaradılıb. Bunun əsas məqsədi vətəndaşlara xidmət etməkdir"**, - deyə dövlətimizin başçısı vurğulayıb.

Bəhs olunan görüşdə Prezident İlham Əliyev diqqəti həmçinin digər bir vacib məqama çəkib. Məlum olduğu kimi, son illərdə respublikamızda dövlət başçısının tapşırığı əsasında əhalinin pulsuz tibbi müayinəsi həyata keçirilir. Prezident İlham Əliyev hər il ölkəmizdə yüksək səviyyədə keçirilən və böyük vətəndaş məmnunluğu yaradan bu aksiyanı dünya miqyasında özünü doğruldan bir təcrübə kimi səciyyələndirərək deyib: **"Bu il altı milyona yaxın insan dövlət xətti ilə müayinədən keçəcək. Biz bu proqramı bir neçə ildir ki, uğurla icra edirik. Hesab edirəm ki, dünya miqyasında bu, artıq özünü tam doğrultmuş bir təcrübədir".**

Bütövlükdə, ölkə üzrə müasir səhiyyə infrastrukturunun yaradılması ilə bağlı statistika kifayət qədər zəngindir. Qeyd edək ki, 2004-2018-ci illərdə ölkə üzrə 17 şəhər və rayonda mərkəzi xəstəxanalar yenidən tikilib. Bu illər ərzində regionlarda yerləşən 28 xəstəxana binası əsaslı təmir olunub. Hazırda ayrı-ayrı rayonlarda mərkəzi xəstəxana binalarının inşası və yaxud əsaslı şəkildə yenidən qurulması davam etdirilir. 2019-cu ilin sonunadək il ərzində inşa olunan mərkəzi rayon xəstəxanalarının sayı 10-a çatdırılacaq.

### GÜCLÜ MÜASİR İNFRASTRUKTURUN YARADILMASI TƏHSİL SAHƏSİNDƏ UĞURLARIN ƏSASINI TƏŞKİL EDİR

Son 16 ildə respublikamızda həyata keçirilən bu və ya digər tədbirlərin, təhsilin inkişafı ilə bağlı qəbul edilən müvafiq Dövlət proqramlarının uğurla icra edilməsi sayəsində ölkəmizdə təhsil sahəsində keyfiyyət və kəmiyyət göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Təhsil sahəsində uğurlarımızın təməlində dayanan digər mühüm amil isə maddi-texniki baza ilə bağlıdır. Güclü müasir infrastrukturun yaradılması təhsil sahəsində davamlı uğurların əldə olunmasına öz müsbət təsirini göstərir. Ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq təhsilin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir, o cümlədən yeni çoxsaylı təhsil müəssisələri tikilib istifadəyə verilir. Yeni tikilən təhsil ocaqları bir qayda olaraq ən müasir avadanlıqlarla təmin olunur. Son 16 ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə məktəb tikintisinə dair bir neçə ayrıca Dövlət Proqramı qəbul edilib. Bundan başqa, digər sahələri əhatə edən Dövlət proqramlarında da məktəb tikintisinə böyük diqqət yetirilir. Məsələn, regionların, Bakı şəhərinin və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı, eləcə də yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı Dövlət proqramlarında məktəb tikintisinə dair geniş müddəalar öz əksini tapıb. Eyni zamanda, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təhsil müəssisələrinin infrastrukturunun yenilənməsinə geniş yer ayrılıb.

Respublikamızda təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi ildən-ilə daha geniş vüsət alır. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar əsasında ölkə üzrə məktəb tikintisinə, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük həcmlərdə maliyyə vəsaiti yönəldilir. Məsələn, dövlət başçısının 10 iyun 2019-cu il tarixində imzaladığı "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında" Sərəncamla Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinə 40.0 (qırx) milyon manat vəsait ayrılıb. Prezident İlham Əliyev 11 iyun 2019-cu il tarixində isə "Azərbaycan Respublikasında təhsil müəssisələrinin qazlaşdırılması haqqında" Sərəncam imzalayıb. Bəhs olunan sənədə əsasən, təhsil müəssisələrinin qazlaşdırılması məqsədilə Təhsil Nazirliyinə 5,7 milyon (beş milyon yeddi yüz min) manat vəsait ayrılıb.

Ölkə boyu 2004-cü ildən etibarən yeni təhsil müəssisələrinin tikilməsi və yaxud mövcud məktəblərin əsaslı şəkildə yenidən qurulması sayəsində 1 milyon şagirdin təhsil şəraiti yaxşılaşıb. Prezident İlham Əliyev Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Savalan yaşayış massivində 28 nömrəli tam orta məktəbin açılış mərasimindəki çıxışında ölkəmizdə təhsilin inkişafı məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirildiyinə diqqət çəkərək vurğulayıb ki, Azərbaycanda təhsilə çox böyük diqqət yetirilir. Dövlət başçısı yeni məktəblərin inşasını təhsil sahəsinə böyük töhfə kimi dəyərləndirərək deyib: **"Son 15 il ərzində Azərbaycanda 3 mindən çox məktəb tikilib və əsaslı təmir edilib. Bu, təhsil sahəsinə çox böyük töhfədir".**

Hazırda ölkə üzrə modul tipli məktəblərin tikintisi də intensiv şəkildə davam etdirilir. Yeri gəlmişkən, Prezident İlham Əliyevin 2019-cu il iyunun 10-da imzaladığı müvafiq Sərəncama əsasən, respublika ərazisində modul tipli məktəblərin quraşdırılması məqsədilə Təhsil Nazirliyinə 18,0 (on səkkiz) milyon manat vəsait ayrılıb.

**Mübariz ABDULLAYEV**